# Qadın hərəkatına töhfə verən siyasət

Tariximizə nəzər salsaq, görərik ki, inkişafımızın bütün mərhələlərində qadınlar kişilərlə bərabər dövlət quruculuğunda, ictimai-siyasi həyatımızın hər bir sahəsində fəal iştirak ediblər. Azərbaycan Şərqdə qadınlara kişilərlə bərabər seçkilərdə iştirak etmək, seçmək və seçilmək hüququ verən ilk ölkədir. Bununla da Azərbaycan qadınına hətta demokratiyanın beşiyi sayılan bir sıra Avropa ölkələrindən və ABŞ-dən əvvəl cəmiyyət həyatında siyasi proseslərə qoşulmaq hüququ verilib.

Azərbaycan qadınları bu gün də dövlət quruculuğunda, ölkənin ictimai-siyasi həyatında fəal iştirak edərək Vətənimizin sosial-iqtisadi, elmi-intellektual potensialının artırılmasına, mədəniyyətimizin inkişafına öz töhfələrini verirlər.

## Dövlətimizin prioritetlərindən biri

Müstəqil Azərbaycanın 1995-ci il noyabrın 12-də qəbul edilən ilk Konstitusiyası qadınların kişilərlə bərabər hüququnu təsdiqləməklə demokratik dövlət quruculuğu prosesində onların fəal iştirakının hüquqi bazasını formalaşdırdı. Ulu Öndər Heydər Əliyevin 1998-ci il yanvarın 14-də imzaladığı "Azərbaycanda qadınların rolunun artırılmasına dair tədbirlər haqqında" sərəncamı, daha sonra "Azərbaycan Respublikası Qadın Problemləri üzrə Dövlət Komitəsinin yaradılması haqqında", "Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" fərmanları qadınların ictimai-siyasi həyatda iştirak və imkanlarının genişləndirilməsi sahəsində dövlət strategiyasının əsaslarının yaradılmasında mühüm rol oynadı.

Ümummilli Liderimizin əsasını qoyduğu bu siyasət Prezident İlham Əliyev hakimiyyətinin ilk illərindən bu günədək uğurla davam etdirilir. Qadın hüquqları, o cümlədən onların ictimai həyatda fəaliyyətinin artırılması istiqamətində önəmli addımlar atılır. Qadınların ictimai-siyasi həyatda fəal təmsilçiliyi, bütün sahələrdə kişilərlə bərabər hüquqlara malik olması dövlət idarəçiliyinin prioritet istiqamətlərindən birinə çevrilmişdir. Təşkilatçılığı, biliyi və istedadı ilə seçilən, ictimaiyyət arasında böyük nüfuz qazanan xanımlarımız ölkənin ali icraedici və qanunverici orqanlarından, məhkəmə-hüquq sistemindən tutmuş dövlətin ən mühüm, stateji pillələrində şərəfli xidmətə irəli çəkiliblər. İndi Azərbaycan qadınının səsi dünyanın ən uca tribunalarından, ali dövlət tədbirlərindən gəlir və onlar bu gün xalqımızın haqq səsini qürurla bütün dünyaya yayırlar.

Möhtərəm Prezidentimiz qadınların cəmiyyətdə iştirakını daha da artırmaq üçün hələ 2006-cı ildə "Gender bərabərliyinin təminatları haqqında" qanun, Qadın Problemləri üzrə Dövlət Komitəsinin Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi kimi yenidən formalaşdırılması ilə bağlı müvafiq sərəncam və digər mühüm sənədlər imzalamışdır. Yorulmadan həyata keçirilən bu siyasətin mahiyyətində qadınlara cəmiyyətin tamhüquqlu üzvü kimi bütün imkanlardan bərabər istifadə üçün zəruri şəraitin yaradılması dayanır. Günümüzdə isə qadınlar artıq yalnız mədəniyyət sahəsində, səhiyyədə, təhsildə və elmdə deyil, biznes sahəsində də öz sözlərini deyirlər. Əslində, elə bu da milli dövlətçiliyimizin daha da möhkəmləndirilməsinə, ailə institutunun təkmilləşməsinə, gənc nəslin zərif təbəqəsinin xalqımızın taleyüklü problemlərinin həllində daha yaxından iştirakına, cəmiyyətdə şəffaflığın, ədalətin, hüquq bərabərliyinin daha etibarlı təmininə və qorunmasına yönəlib.

## İqtisadi sferada qadınların təmsilçiliyi yüksəlir

Gender bərabərliyinin təmin edilməsi davamlı inkişafın zəruri komponentidir. Bu balansın pozulması yalnız mənəvi-sosial problem deyil, həm də böyük iqtisadi problemdir. Azərbaycanda əmək bazarında gender balansının qorunması üçün müxtəlif tədbirlər görülür. Azərbaycanda qadınların iqtisadi təşəbbüskarlığının artması, onların kiçik və orta sahibkarlıqda geniş təmsilçiliyi məşğulluğun təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edir. Qadınların əmək bazarında kişilərlə bərabər iştirakına imkan yaradılması onların idarəetmə, biznes və hakimiyyət strukturlarında daha geniş təmsil olunmasını şərtləndirir. Burada əsas məqsəd qadınlarda özünəinam hissini artırmaq, cəmiyyətə töhfə verə bilmələri üçün şərait yaratmaqdır.

2006-cı ildə qadınlarla bağlı işlərin daha mütəşəkkil və ardıcıl şəkildə aparılması üçün Prezident İlham Əliyevin müvafiq fərmanı ilə yenidən formalaşdırılan Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ötən müddət ərzində çox işlər görüb. Başqa sözlə, ölkəmizdə qadın və uşaq problemlərinin həlli, gender proqramının icrası yeni inkişaf mərhələsinə qədəm qoyub. Gender siyasəti üzrə hüquqi bazanın təkmilləşdirilməsi, cəmiyyətin bütün təbəqələrdən olan üzvlərinin bərabər hüquqlarının təmin edilməsi üçün "Gender bərabərliyinin təminatları haqqında" (2006-cı il), "Məişət zorakılığının qarşısının alınması haqqında" (2010-cu il) Azərbaycan Respublikasının qanunları qəbul olunmuşdur. Bütün bunlar təfəkkürlərdə yeni düşüncə tərzinin formalaşması ilə bərabər, köhnəlmiş stereotiplərin də qırılmasına səbəb olmuşdur.

Azərbaycan qadını tarixən öz fəaliyyətini əsasən maarifçilik və xeyriyyəçilik ideyalarının yayılmasından başlayaraq mədəni, dini, milli-mənəvi dəyər və ənənələrin daşıyıcısı və qoruyucusu kimi davam etdirmişdir. Əzm, dəyanət və qəhrəmanlıqla qət edilən bu yol isə haqlı olaraq öz layiqli qiymətini almışdır. Bu gün Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın simasında qadınlar dövlətə, xalqa şərəfli xidmətin ən mükəmməl nümunələrini yaradırlar. Hörmətə və rəğbətə layiq bu fədakar xidmət isə dövlətimizin şanlı tarixinə, onun Zəfər salnaməsinə qızıl hərflərlə yazılmışdır.

Yeri gəlmişkən, Vətən müharibəsində qələbələrimizin qazanılmasına öz əvəzsiz töhfələrini verən, həm ön, həm arxa cəbhədə fədakarlıq, vətənsevərlik, milli birlik və milli ruh nümayiş etdirən onlarla Azərbaycan qadını da dövlətimizin ali diqqətindən kənarda qalmamışdır. Onlardan bir çoxu yüksək dövlət mükafatları ilə təltif olunmuş, şəhid xanımlarımızın əziz xatirəsi qayğı və sayğı ilə əhatə olunmuşdur.

## Qadınlar ölkənin ictimai-siyasi həyatında fəaldırlar

Bu gün Azərbaycan Respublikasının bütün qanunları və normativ-hüquqi aktlarında qadınların bərabər hüquqlarının təsbit edilməsi diqqət mərkəzində saxlanılır. Prezident İlham Əliyev ölkənin ictimai-siyasi həyatında qadın nümayəndəliklərinin genişlənməsinə çox böyük diqqət yetirir. Dövlət başçısının sərəncamları ilə müxtəlif sahələrdə fərqlənmiş qadınlar mükafat və fəxri adlara layiq görülürlər. Qadınların ictimai-siyasi həyata daha çox cəlb olunması, uşaqların hüquqlarının təmin edilməsi və onlar üçün zəruri şəraitin yaradılması üçün ciddi işlər görülür.

İndi Azərbaycan öz tarixinin hərtərəfli və sürətli inkişafı, bərpa və quruculuq dövrünə daxil olub. Bu yol ölkəmizin daha ümidli gələcəyinə aparır. Dövlətimizin qadın siyasətindən danışarkən, sözsüz ki, Hüseyn Cavidin "Qadın gülərsə, şu ıssız mühitimiz gülləcək, - Sürüklənən bəşəriyyət qadınla yüksələcək" misraları yada düşür. Bu gün Prezident İlham Əliyevin uğurla həyata keçirdiyi siyasət nəticəsində Azərbaycan qadını ürəkdən gülməyi bacarır, o, xoşbəxt və firavandır.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2022.- 24 dekabr.- S.22.